# SƏNƏT
# AKADEMİYASI

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ

**BAKI XOREOQRAFİYA AKADEMİYASI**

# SƏNƏT AKADEMİYASI

*beynəlxalq elmi-nəzəri jurnal*

***XÜSUSI BURAXILIŞ***

**Bakı - 2019**

MINISTRY OF CULTURE OF REPUBLIC OF AZERBAIJAN

**BAKU ACADEMY OF CHOREOGRAPHY**

# ACADEMY OF ARTS

*international scientific-theoretical journal*

***SPECIALLY EDITION***

**Baku - 2019**

# RƏQQASƏ ƏMİNƏ DİLBAZİ OBRAZI RƏNG VƏ PLASTİKA İFASINDA

Təsviri sənət incəsənətin digər növləri ilə qarşılıqlı əlaqədə olaraq, rəssamların yaradıcılığında geniş janr və mövzu müxtəlifliyinə səbəb olur. Xalqın adət-ənənələri, folklor və etnoqrafiyası bir-birindən maraqlı əsərlərdə canlandırılır. Təsviri sənətin xareoqrafiya ilə sıx bağlılığını nəzərə alaraq, rəqs səhnələrinin təsvirini heç də təsadüfü adlandırmaq olmaz. Xüsusilə toy səhnələrində rəqqasların, adi insanların rəqs etmələrini rəssamlarımız tablolarında özünəməxsus şəkildə əks etdirmişlər. Azərbaycan rəqs sənətinin görkəmli nümayəndəsi, xalq artisti Əminə Dilbazinin obrazı da rəngkarlıq və heykəltaraşlıqda iki nəhəng sənətkarın yaradıcılığında canlandırılmışdır.

Portret janrının inkişafından danışırıqsa, biz xüsusilə xalq rəssamı Mikayıl Abdullayevin adını qeyd etməliyik. Onun yaradıcılığında tarixi-ədəbi obrazlar sənətşünaslığımızda ikonoqrafik təhlil kontekstində bu gündə müraciət edilən mövzulardandır. Sərhədlərin bağlı olduğu, müstəqilliyin buxovlandığı şəraitdə daxilən azad, milli ruhlu, bəşəri fikirli, optimist, uzaqgörən sənətkarın yaradıcılığı həmişə aktual, çəkdiyi mənzərələr qəlbə xoş təsir bağışlayan, tabloları həyatı, canlandırdığı obrazlar rəngarəng idi.

1954-cü ildə rəqqasə Əminə Dilbazinin portreti də rəssamın uğurlu işlərindən biridir. Kompozisiyada əsas diqqət rəqqasənin səhnədə rəqs etmə zamanı bir epizodun çatdırılmasıdır. Obrazın tamaşaçıya baxan baxışları isə, daxili aləminin sənət ilə yaşamasına işarədir. Geyimindəki millilik, aksesuarlar ənənəvi rəqs sənətinin simvollarıdır. Üzündəki mimika, jestlər və dinamika rəqqasənin səhnədə hər şeyi unudaraq sənətinin sehrinə düşməsidir. Obrazın quruluşunda Mikayıl Abdullayev üçbucağın riyazi qanunlarını, rəng ilə əlaqələndirmişdir. Kompozisiyada işıq-kölgə, blik, rəng və xüsusilə geyimdə dörd fəslin əksi əsərin ikonoqrafik təhlil gücünü artırır.



**Şəkil1. Mikayıl Abdullayev."Rəqqasə Əminə Dilbazinin portreti"(1954)(kətan,yağlı boya)**

Azərbaycan heykəltaraşlığına nəzər yetirsək açıq səma altında muzey adlandırılan birinci fəxri xiyabanda bir çox heykəllərin müəllifi olan həmçinin də, rəqqasənin obrazının da yaradılmasında xalq rəssamı Ömər Eldarovun adını qeyd etməliyik. 2011-ci ildə ucaldılmış memorial sənət əsərində,tunc və qranit materiallarından istifadə edilmişdir. Heykəltaraş obrazda daha çox sənət ilə yaşama hisslərini ifadə etməyə çalışmışdır. Rəqqasənin obrazındakı geyimindəki qırışlar, əllərinin daha dəqiqliklə verilməsi, dinamik şəkildə təqdim edilməsi tamaşaçının diqqətini cəlb edir. Ömər Eldarovun bu əsərinə fikir versək daha çox, yunan ilahələrinə xas olan duruş, ifadəliliyi xatırladır. Xalq rəssamı bu fikri ilə Əminə Dilbazini "Rəqs sənətimizin ilahəsi" kimi təqdim etməyə çalışmışdır.

Mikayıl Abdullayev və Ömər Eldarov kimi sənətkarlarımızın rəng-plastikanın ifasında Əminə Dilbazi obrazı rəqs sənətimizin professional sənətkarına həsr edilən ən maraqlı əsərlərdir....




**Şəkil 2. Ömər Eldarov "Əminə Dilbazi" (2011) (tunc,qranit)**

***EMİL AĞAYEV***

*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*

*"Sənətşünaslıq" fakültəsinin magistrantı*